

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 21 (23.183)

*30 yanvar 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Dövlətimizin başçısı konfransda giriş nitqi söyləyib.

Prezident İlham Əliyev deyib ki, regionların sosial-iqtisadi inkişafına dair üçüncü dövlət proqramının icrası təmin edildi. Beş il bundan əvvəl qəbul edilmiş proqram artıqlaması ilə yerinə yetirildi. Son beş il ərzində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olundu. Üçüncü proqramın çox böyük əhəmiyyəti var. Bu proqram bizə imkan yaratdı ki, regionlarda əvvəlki illərdə aparılan islahatlara, görülən işlərə yeni təkan verək.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 29 yanvar tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları da vardır.

**Qəribov Mahin Heydar oğlu**
**Məmmədov Qalib Müslüm oğlu**
**Nəsirova Minayə Ramiz qızı**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## Xarici ticarət əlaqələrində ixracın artması Naxçıvanın istehsalçı imicinin formalaşmasında mühüm əhəmiyyət daşıyır

*"Muxtar respublikanın iqtisadi inkişafında diqqəti cəlb edən amillərdən biri də xarici ticarət əlaqələrinin genişləndirilməsi, ixrac potensialının gücləndirilməsidir. Sahibkarlığa göstərilən sistemli dövlət dəstəyi, ixracın stimullaşdırılması ilə bağlı qəbul edilmiş qərarlar muxtar respublikada istehsal olunan məhsulların ixrac imkanlarının artmasına və xarici bazarlarda tanınmasına şərait yaratmışdır". 2018-ci il dekabrın 27-də keçirilən beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında Ali Məclisin Sədri cənab Vasif Talıbovun səsləndirdiyi bu fikirlər mühüm əhəmiyyəti ilə diqqət çəkir.*

Hər şeydən əvvəl, xarici iqtisadi əlaqələrin inkişafı bütün dövlətlər üçün vacib sahələrdən hesab olunur. Belə əlaqələrin yaradılması isə iqtisadi potensialla yanaşı, həm də beynəlxalq əlaqələrin necə qurulmasından asılıdır. Bu isə o qədər də sadə məsələ deyil. Müasir dünya təcrübəsi də göstərir ki, bu gün belə əlaqələrin qurulması maraqlı tərəflərdən müstəqil siyasətin yürüdülməsini tələb edir. Çünki qloballaşmış dünyada hər bir ölkənin beynəlxalq çərçivədə öz maraqları var. Bu maraqların təmin edilməsi isə o zaman mümkün olur ki, istənilən dövlət öz xalqının milli mənafeyi üçün qəti və müstəqil qərarlar qəbul etməyi bacarsın. Dolayısı ilə yalnız müstəqil siyasət yürüdən, beynəlxalq əməkdaşlıqda etibarlı tərəfdaşa çevrilə bilən tərəflər bu və ya digər əlaqələrin qurulmasına öz töhfələrini verə bilərlər. Digər tərəfdən, bu gün xarici iqtisadi əlaqələrin səviyyəsi ölkələrin iqtisadi gücünün və beynəlxalq aləmdəki nüfuzunun əsas göstəricilərindən biri hesab olunur. Bu nüfuz beynəlxalq arenada bir çox problemlərin həllində mühüm rol oynayır.

Bu gün beynəlxalq aləmdə ən çox diqqət edilən məsələlərdən biri xarici əməkdaşlıqda ticarət əlaqələrinin həcminin genişləndirilməsidir. Həmin əlaqələr bir ölkənin dünya bazarındakı yerinin müəyyənləşdirilməsindən tutmuş qlobal iqtisadi məkana inteqrasiyasına qədər böyük rol oynayır. Eyni zamanda xarici iqtisadi əməkdaşlıq dostluq əlaqələrinin nəticəsi kimi də diqqət çəkir.

Bu gün dövlətimizin apardığı məqsədyönlü iqtisadi siyasətin bir hissəsi olmaqla ticarətin, xüsusilə xarici ticarətin tənzimlənməsi, daxili bazarın qorunması, gömrük prosedurlarının sadələşdirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, bütövlükdə, ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ticarət dövriyyəsinin artmasına, o cümlədən xarici ticarətin genişlənməsinə şərait yaradıb.

Vurğulamaq lazımdır ki, muxtar respublikada beynəlxalq iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı ilk addımlar ümummilli lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə atılıb. Belə ki, qonşu İran İslam və Türkiyə respublikaları ilə yaradılmış hərtərəfli əlaqələr iqtisadi sahədə də öz uğurlu nəticələrini göstərib. Həmin əlaqələrin yaradılması ilk vaxtlarda idxal məhsulları üzərində qurulsa da, sonrakı dövrlərdə milli iqtisadiyyatın inkişafı, bunun da nəticəsində yerli məhsulların istehsal həcminin artması aparılan əməliyyatlarda müsbət balansın yaranmasına imkan verib. Ötən dövrə nəzər salsaq, görərik ki, Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrində 1992-1995-ci illər idxalın həcminin artması, əsasən, gündəlik tələbat mallarının idxalı ilə xarakterizə olunur. Belə ki, əvvəlki iqtisadi əlaqələrin kəsilməsi, muxtar respublikanın blokada şəraitində olması və mövcud sənaye müəssisələrinin öz fəaliyyətlərini əsasən dayandırması bu dövrdə vacib yeyinti məhsullarına olan tələbatın idxal hesabına ödənilməsini labüd etmişdi. Eləcə də bu dövr xarici ticarətdə barter əməliyyatlarının üstünlük təşkil etməsi, idxalın dəyər və həcminin artması ilə xarakterizə olunur. İdxalın artmasının bir səbəbi də xarici iş adamlarının ticarət əlaqələrinin qurulmasında maraqlarının artmasından, eləcə də elektrik enerjisinin idxalından ibarət olmuşdur. 1996-2000-ci illər isə Naxçıvan Muxtar Respublikasında xarici ticarətin formalaşdırılması dövrü kimi səciyyələnir. 2001-ci ildən başlayaraq muxtar respublikada xarici ticarət əlaqələrinin tənzimlənməsi sahəsində qanunvericiliyin yenilənməsinə, gömrük orqanlarının işinin daha da təkmilləşdirilməsinə, bu orqan strukturlarının texniki təchizatının tam yeniləşməsinə, yerli sahibkarların maraqlarının nəzərə alınmasına, idxalın istehlak yönümlülüyünün istehsal xarakterli məhsullarla yenilənməsinə başlanılmışdır. Bu dövrdə muxtar respublikanın iqtisadiyyatı ona bilavasitə təsir göstərən xarici ticarət əlaqələrilə paralel surətdə inkişaf etmişdir.

2001-2008-ci illərdə muxtar respublikada xarici ticarət dövriyyəsinin artan dinamikası davam etmişdir ki, bu da Naxçıvanın sosial-iqtisadi inkişafı, dünyaya açılması, yerli istehsal məhsullarının xarici bazarlara yol açması, xarici iş adamlarının maraq dairəsinə düşməsi, yerli sahibkarlığın daha da inkişaf etməsi ilə səciyyələnir. Nəhayət, xarici ticarət dövriyyəsinin ildən-ilə artımı 2009-cu ildən müsbət saldonun qeydə alınmasına səbəb olmuş və növbəti illərdə dövriyyə həcminin genişlənməsinə paralel olaraq müsbət saldonun payı da artmışdır.

Ötən dövrdə muxtar respublika iqtisadiyyatının dinamik inkişafı digər sahələrdə olduğu kimi, xarici iqtisadi əlaqələrin genişləndirilməsinə də öz təsirini göstərmişdir. Bu sahədə görülən işlərin nəticəsidir ki, bu gün qonşu Türkiyə və İranla yanaşı, Rusiya, Gürcüstan, Ukrayna, Litva, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə də Naxçıvandan məhsullar ixrac olunur.

Sahibkarlığın inkişafına göstərilən dövlət qayğısının və ticari əlaqələrin genişlənməsinə yönəldilmiş iqtisadi-sosial siyasətin nəticəsidir ki, artıq muxtar respublikanın xarici ticarət dövriyyəsində ixracın payı 90 faizə yaxınlaşmışdır.

2018-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 483 milyon 431 min 600 ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 424 milyon 266 min 600 ABŞ dollarını ixrac, 59 milyon 165 min ABŞ dollarını idxal təşkil etmiş və 365 milyon 101 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır. Bu rəqəmlər həm də onun göstəricisidir ki, Naxçıvan Muxtar Respublikası ixrac edən bir diyardır.

Onu da deyək ki, dünya ticarət dövriyyəsində ixrac payı yüksək olan ölkələr, həm də istehsalçı ölkələr kimi tanınırlar. Elə buna görədir ki, dünyanın inkişaf etmiş dövlətlərinin hamısı mühüm istehsalçı ölkələrdir. Bu amilə əsaslanaraq deyə bilərik ki, ölkəmizin, o cümlədən muxtar respublikamızın xarici ticarət əlaqələrində ixracın payının getdikcə artması, həm də beynəlxalq bazarda istehsalçı imicimizin formalaşmasına öz töhfəsini verir.

**Səbuhi HƏSƏNOV**

*Fəaliyyətə başladığı on ildən artıq bir müddətdə ölkəmizin nüfuzlu banklarından birinə çevrilmiş "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti qarşıya qoyulmuş vəzifələri uğurla yerinə yetirərək muxtar respublika iqtisadiyyatının inkişafına ciddi töhfələr verməkdədir.*

## Naxçıvanbank ötən ili də uğurla başa vurub



Naxçıvanbank hazırda genişhəcmli infrastruktura və peşəkar xidməti personala malikdir. Belə ki, bankın Naxçıvan və Bakı şəhərlərində, Şərur, Culfa və Ordubad rayonlarının hər birində bir filial olmaqla, 5 filial şəbəkəsi və Naxçıvan şəhərində fəaliyyət göstərən 1 mübadilə şöbəsi vardır. Müraciət edən müştərilərə lazım olan hər növ bank əməliyyatları, kreditlərin verilməsi, ödəniş kartları, pul köçürmələri, kommunal xidmət haqlarının ödənilməsi, əməkhaqqı ödənişləri, hesablaşma xəzinə xidmətləri və digər xidmətlər təklif olunur. Kreditlərə gəldikdə, Naxçıvanbankın müştəriləri ölkəmiz üzrə ən aşağı faiz dərəcələri ilə bir sıra kredit məhsulları əldə edə bilirlər. Belə ki, bankın verdiyi istehlak kreditləri 24 ay müddətinə illik 17 faiz, kart kreditləri 12 ay müddətinə 18 faiz, avtomobil kreditləri 36 ay müddətinə illik 17 və 18 faiz, bankın daxili vəsaiti hesabına verilən ipoteka kreditləri 10 il müddətinə 10 faiz, "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına verilən ipoteka kreditləri 25 və 30 il müddətinə 4 və 8 faiz dərəcəsilə təklif olunur.

Bununla yanaşı, Naxçıvanbank kənd təsərrüfatının inkişafına da böyük dəstək olan kreditlər təklif edir. Belə ki, bank tərəfindən əkinçilik üzrə 12 ay müddətinə 13 faiz, heyvandarlıq, quşçuluq, arıçılıq və digər sahələr üzrə 24 ay müddətinə 15 faiz dərəcəsilə kreditlər təklif olunmaqdadır. Ümumilikdə isə biznes kreditləri 15 faiz dərəcəsilə 24 ay müddətinə təklif edilməkdədir. Bank həmçinin müvəkkil bank kimi öz müştərilərinə Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 2, 5 və 8 il müddətinə illik 5 faiz dərəcəsilə güzəştli sahibkarlıq kreditləri də verməkdədir.

Banka müraciət edən müştərilərlə aparılan operativ işlərin nəticəsidir ki, 31 dekabr 2018-ci il tarixədək Naxçıvanbankın kredit portfeli artaraq 64 milyon 854 min manata çatıb. Bu portfelin 7 milyon 430 min manatı ipoteka, 12 milyon 982 min manatı istehlak, 16 milyon 372 min manatı biznes, 23 milyon 285 min manatı sənaye kreditlərinin, 4 milyon 785 min manatı kənd təsərrüfatı sahəsinə yönəldilən kreditlərin payına düşür. Təkcə ötən ilin yekunlarına baxdıqda isə bütün bunların təsadüfi olmadığı görünməkdədir. Belə ki, 2018-ci ildə bank tərəfindən 32 milyon 643 min manatdan çox kredit verilib. Bunun da 2 milyon 761 min manatı ipoteka, 5 milyon 988 min manatı sənaye, 16 milyon 899 min manatı istehlak, 4 milyon manatı kənd təsərrüfatı, 2 milyon 992 min manatı isə biznes kreditlərinin payına düşür. 2018-ci ildə bankın ipoteka kreditləri vasitəsilə 67 ailə mənzillə təmin edilib. Göründüyü kimi, əhali, habelə kiçik və orta sahibkarlıqla məşğul olan şəxslər üçün "Naxçıvanbank" ASC ən böyük maliyyə dəstəkçisidir.

Naxçıvanbank yeni texnologiyaların da tətbiqinə diqqət yetirərək mütərəqqi bankçılıqda özünü təsdiq edir. Belə ki, ötən il muxtar respublika ərazisində bank 42 ödəniş terminalı quraşdıraraq əhalinin istifadəsinə verib. Bununla da bütün növ kommunal, mobil operator, internet, həmçinin smartkartlar vasitəsilə istifadə olunan işıq və qazpulu ödənişlərinin həyata keçirilməsi imkanı yaradılıb. Ötən il bu terminallar vasitəsilə 345 mindən çox əməliyyat aparılaraq 1 milyon 614 min manatdan artıq məbləğdə ödənişlər edilib. Ümumilikdə isə bank tərəfindən quraşdırılaraq əhalinin istifadəsinə verilmiş 38 bankomat və 802 POS-terminalla vətəndaşlar rahat və sürətli şəkildə pul əməliyyatları apara bilirlər.

Yaradılan infrastruktur, aparılan maarifləndirmə və həvəsləndirmə tədbirləri nəticəsində banka məxsus kart istifadəçiləri ötən il ərzində 9 milyon manat həcmində elektron ödənişlər ediblər ki, bunun da 2 milyon 773 min manatı POS-terminallar, 4 milyon 577 min manatı elektron ticarət, 75 min manatı bankomatlar vasitəsilə həyata keçirilən ödənişlərin və 2 milyon manatı isə digər ödənişlərin payına düşür.

Cəmiyyətimiz sürətlə inkişaf edir və hər sahədə olduğu kimi, bank-kredit sahəsində də əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikası iqtisadiyyatı sağlam zəminə əsaslanmaqla öz uğurlu yoluna davam edir. Bu uğurların qazanılmasında isə şübhəsiz, "Naxçıvanbank" ASC-nin də rolu böyükdür.

**Əli CABBAROV**



## İqtisadiyyat

*Naxçıvan Muxtar Respublikasının müasir sosial-iqtisadi inkişaf mərhələsində mühüm yer tutan Şahbuz rayonunda mövcud resurslardan səmərəli istifadəyə imkan yaradan hərtərəfli dövlət qayğısı burada məskunlaşmış zəhmətkeş insanların rifahının yüksəlməsinə, şəhər və kəndlərin abadlaşaraq yeni növrağa qovuşmasına səbəb olur. Rayonda həyata keçirilən quruculuq, iqtisadi, sosial layihələr və mədəni tədbirlər hər il olduğu kimi, 2018-ci ildə də davam etdirilib.*



# Şahbuz rayonu hərtərəfli dövlət qayğısı ilə əhatə olunub

Belə ki, bəhs olunan dövrdə rayonda quruculuq tədbirlərinin əhatə dairəsi genişləndirilərək Şahbuz şəhərində təmizləyici qurğular sistemi istifadəyə verilib. Şəhərdə mədəniyyət evinin və aviakassanın inzibati binalarında tikinti və abadlıq işləri başa çatıb. Tikintisi davam edən çoxmərtəbəli ictimai yaşayış binasında da xeyli iş görülüb. Bunlardan əlavə, rayonun Ağbulaq kəndində Xizək Mərkəzinin və "Badamlı" mineral sular zavodunun tikintisində işlər davam etdirilib. Ağbulaq kəndində bütün evlərin dam örtükləri dəyişdirilib, fasadları yenilənib, yararsız tikililər sökülüb, həyətlərdə abadlıq işləri aparılıb, lazımi kommunal-məişət şəraiti yaradılıb. Aparılan quruculuq tədbirlərinin geniş vüsət alması daha çox investisiya qoyuluşuna səbəb olub və 2018-ci ildə bütün maliyyə mənbələri hesabına əsas kapitala investisiya qoyuluşunun həcmi 2017-ci illə müqayisədə 1,2 faiz artaraq 27 milyon 794,3 min manat təşkil edib. Tikinti-quraşdırma işlərinə sərf olunmuş investisiyaların həcmi bir il öncəyə nisbətən 1,1 faiz artaraq 25 milyon 441,1 min manat olub.

Rayonda 2018-ci ildə sənaye məhsulu istehsalında da artım əldə edilib, 10 milyon 570,7 min manat həcmində, yaxud əvvəlki illə müqayisədə 0,6 faiz çox sənaye məhsulu istehsal olunub.

Muxtar respublikada aqrar sahənin inkişafına göstərilən dövlət qayğısı nəticəsində Şahbuzda da bu sahəyə maraq xeyli artıb. Rayonda 2018-ci ilin məhsulu üçün 1615 hektar sahədə taxıl əkini həyata keçirilib, 214 hektar sahədə paxlalı, 2 hektar sahədə qarğıdalı, 6 hektar sahədə günəbaxan, 435 hektar sahədə kartof, 165 hektar sahədə tərəvəz, 10 hektar sahədə bostan bitkilərinin əkini aparılıb. Rayon üzrə 4423 ton taxıl, ondan 3759 ton buğda, 673 ton arpa, 654 ton dənli-paxlalılar, 9,2 ton qarğıdalı, 15 ton günəbaxan, 7586 ton kartof, 2056 ton tərəvəz, 114 ton bostan məhsulları, 8234 ton meyvə, 174 ton üzüm istehsal edilib. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə məhsuldarlıq dənli və dənli-paxlalılarda 2,2, qarğıdalıda 2,2, günəbaxanda 9,2, kartofda 2,4, tərəvəzdə 0,6, bostan bitkilərində 0,9 faiz çox olub.

Rayonda 2019-cu ilin məhsulu üçün 1411 hektar sahədə payızlıq səpin aparılıb. Bunun da 1387 hektarı buğda, 24 hektarı isə arpadır. 2017-ci illə müqayisədə payızlıq səpin 0,3 faiz çoxdur.

Heyvandarlıq Şahbuz rayonu iqtisadiyyatında mühüm yer tutur. Bu sahəyə göstərilən diqqət nəticəsində rayonda ötən il 2932 ton ət, 14289 ton süd, 12 milyon 611 min 700 ədəd yumurta, 157,8 ton yun, 397 ton bal istehsal edilib, bununla da 2017-ci illə müqayisədə 1,3 faiz çox ət, 1,2 faiz çox süd, 1,1 faiz çox yumurta, 1 faiz çox yun, 1 faiz çox bal istehsal olunub. Ümumilikdə, 2018-ci ilin ötən dövründə rayon üzrə 44 milyon 509,8 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub. Bu da əvvəlki illə müqayisədə 3,6 faiz çoxdur.

Kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısı nəticəsində rayonun torpaq mülkiyyətçiləri 2018-ci ildə güzəştli kreditlər hesabına lizinq vasitəsilə 35 ədəd müxtəlif kənd təsərrüfatı texnikası alıb. 2018-ci ildə rayonda 4,8 hektar sahədə yeni bağlar salınıb, 1,9 hektar sahəyə bərpa məqsədilə 1543 ədəd meyvə tingi əkilib. Həmçinin Şahbuz-Batabat magistral avtomobil yolunun kənarlarına meşə ağacları tingi əkilib, fidanların vaxtında suvarılması və becərilməsi təmin edilib.

Məşğulluq məsələlərinin əhəmiyyəti nəzərə alınaraq ötən ildə də Şahbuz rayonunda bu məsələ diqqətdə saxlanılıb. Bu dövrdə 297 rayon sakini iqtisadiyyatın müxtəlif sahələrində işə göndərilib, keçirilmiş əmək yarmarkalarında 40 işaxtaran işlə təmin edilib.

Şahbuz rayonu təhsil ənənələri ilə də həmişə seçilib. Bu sahədə qazanılan uğurlar ötən ildə də davam etdirilib. Belə ki, 2017-2018-ci tədris ilində rayonda ali və orta ixtisas məktəblərinə qəbulda iştirak etmiş 116 məzundan 73-ü ali məktəblərə, 19-u orta ixtisas məktəblərinə qəbul olunub. Ali məktəblərə qəbulda 18 nəfər 500-700 intervalında bal toplayıb.

2019-cu il muxtar respublikamızda "Ailə təsərrüfatları ili" elan olunub. Bu sahədə geniş imkanları olan Şahbuzda da yaradılmış şəraitdən səmərəli istifadə olunması və rayonun sosial-iqtisadi inkişafında yeni nailiyyətlər qazanılması qarşıya qoyulmuş əsas vəzifələrdəndir.

**Əli CABBAROV**

---

*Üzümçülük Naxçıvan Muxtar Respublikasında tarixən kənd təsərrüfatının əsas sahələrindən biri olub. Əlverişli iqlim şəraiti bu ərazidə xalq seleksiyası yolu ilə 120-dən çox üzüm sortunun yaranmasına və becərilməsinə imkan verib. Azərbaycanın üzüm genofondunda Naxçıvanda yayılan üzüm sortları yüksək keyfiyyəti, şəkərliliyi, bioloji xüsusiyyətləri ilə fərqlənir. Mənbələrə əsaslanaraq qeyd edə bilərik ki, muxtar respublikamızda üzümçülüyün tarixi çox qədimdir. Belə ki, aparılan araşdırmalar nəticəsində bu tarixin bizim eradan əvvəl III minilliyə gedib çıxdığı sübuta yetirilib.*

# Həyata keçirilən tədbirlər Naxçıvan üzümünün şöhrətini özünə qaytarır

Müxtəlif dövrlərdə tənəzzülə uğrayan bu təsərrüfat sahəsinin yenidən inkişaf etdirilməsinə artıq illərdir ki, diqqət xeyli artırılıb.

Bununla bağlı daha ətraflı məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin laboratoriya müdiri Pənah Məhərrəmovla həmsöhbət olduq. O bildirdi ki, Naxçıvan ərazisində xalq seleksiyası yolu ilə torpaq-iqlim şəraitinə uyğun seçilmiş üzüm sortlarının əksəriyyəti yetişdirildiyi ərazinin, kəndlərin və ya şəxslərin adları ilə adlandırılıb. Naxçıvanın qara üzümü, Ordubadi, Bənəniyari, Zeynəddin üzümü, Şahtaxtı, Ağ aldərə, həmçinin Hüseyni, Xatını, Cəlali, Xəlili, Əsgəri, Muxtari kimi üzüm sortları buna misal ola bilər. İslam dininin qəbul edilməsinə qədərki dövrdə bu ərazidə üzümçülük, əsasən, şərab hazırlanması istiqamətində inkişaf etdirildiyindən üzüm bağlarında texniki sortlar üstünlük təşkil edib. Qeyd olunan dövrdə mələyi, ağ aldərə, qara üzüm, xətmi, hənəqırna kimi üzüm sortları becərilirdi. İslam dininin qəbul edilməsindən sonra isə şərab istehsalı qadağan olunduğundan süfrə sortlarının becərilməsinə üstünlük verilib. Tarixi mənbələrdə bu ərazidə çoxlu sayda kişmiş və süfrə sortlarının becərildiyi bildirilir. Həmin dövrlərdə üzümdən kişmiş və mövüc istehsal edilib, hətta Yaxın Şərq ölkələrinə də ixrac olunub.

Müsahibimin sözlərinə görə, vaxtilə bu bölgədə becərilən üzüm sortları səyyahların, tacirlərin diqqətini cəlb edib, bu sortlar digər ölkələrə aparılaraq orada becərilib və adları dəyişdirilib. Hazırda ərazisi qədim türk torpaqları olan indiki Qərbi Azərbaycanda becərilən üzüm sortlarımızın adları rəsmi qaydada dəyişdirilib.

Keçən əsrin 70-80-ci illərində bütün ölkədə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikasında da üzümçülük və şərabçılıq yüksək səviyyədə inkişaf etdirilib, ildə 100 min tondan artıq məhsul istehsal olunub. Lakin 1986-cı ildə keçmiş sovet hökuməti tərəfindən qəbul edilmiş "Alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri barədə" qərar Azərbaycanda, o cümlədən də muxtar respublikada üzümçülüyün və şərabçılığın inkişafına ağır zərbə vurdu. 1986-cı ildən başlayaraq üzümlüklərin sahəsi və məhsul istehsalı ilbəil sürətlə azalmağa başladı və sonrakı illərdə tam tənəzzülə uğradı. Müstəqillik qazandığımız illərdə Azərbaycan Respublikasında üzümçülüyün yenidən inkişaf etdirilməsinə diqqət artmaqdadır. Bu baxımdan "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 2011-ci il 15 dekabr tarixli Sərəncamla üzümçülüyün müasir vəziyyəti, inkişafının məqsəd və vəzifələri, əsas istiqamətləri, maliyyə mənbələri və gözlənilən nəticələr müəyyənləşdirilib.

Pənah Məhərrəmov onu da qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasında da bu sahənin inkişafı diqqət mərkəzindədir. Diyarımızda yeni üzüm bağları salınır, üzümlük sahələri genişləndirilir. Muxtar respublikada



süfrə üzümü və ondan hazırlanan müxtəlif məhsullara tələbat da ildən-ilə artır.

Vaxtilə muxtar respublikamızda yerli şəraitə uyğun becərilmiş üzüm və taxıl sortlarının araşdırılıb çoxaldılması, yenidən istehsalata qaytarılması fonunda da böyük işlər görülür. Üzümçülüyə marağın artmasını nəzərə alaraq muxtar respublikamızda üzümün genofondu tədqiq edilərək toplanıb və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun təcrübə sahəsində 150-yə qədər sort və seleksiya yolu ilə alınmış yeni formalardan ibarət "Üzüm genofondu" kolleksiya bağı salınıb.

Vurğulamaq lazımdır ki, Naxçıvan Muxtar Respublikasının torpaq-iqlim şəraiti yüksəkkeyfiyyətli süfrə və texniki üzüm sortlarının becərilməsinə, şərabların, qurudulmuş kişmiş və mövücün istehsalına imkan verir. Günəşli günlərin sayının çoxluğu üzümün şəkərlilik faizinin çox olmasına, xəstəliklərə tutulmasının qarşısının alınmasına səbəb olur.

Müsahibim onu da bildirdi ki, hazırda dünyada mövcud olan 50-yə yaxın üzüm sortunun 9 növü Naxçıvanda becərilir. Fermer və torpaq sahibkarları üzüm bitkisinin inkişafında və məhsuldarlığının artırılmasında torpaqların kimyəvi tərkibinin həlledici amil olmasına diqqət yetirməlidirlər. Məlumat üçün bildirim ki, onlar muxtar respublika Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan laboratoriyalarda həm torpaq, həm də toxumların analizlərini apara bilərlər və bu xidmətlər tamamilə ödənişsizdir.

Pənah Məhərrəmov son olaraq qeyd etdi ki, 2019-cu ilin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Ailə təsərrüfatları ili" elan edilməsi bu təsərrüfatlarda üzümçülüyün inkişafına bir daha köməklik göstərəcək, onların maddi rifahının yaxşılaşdırılmasına, Naxçıvan üzümünün şöhrətinin bərpasına öz töhfəsini verəcəkdir.

**Pərviz HACILI**

---

# “Naxçıvanqaz” İstehsalat Birliyi işini günün tələblərinə uyğun qurur

*“Naxçıvanqaz” İstehsalat Birliyi tərəfindən abonentlərə göstərilən xidmət yaxşılaşdırılır, onların dayanıqlı mavi yanacaqla təmin olunması sahəsində ardıcıl tədbirlər görülür.*



Birliyin mətbuat xidmətindən aldığımız məlumata görə, muxtar respublika ərazisində tikilən və yenidən qurulan müxtəlif təyinatlı obyektlərin qazlaşdırılması, yeni qaz boru xətlərinin quraşdırılması, abadlıq işləri ilə əlaqədar qaz boru xətlərinin yerinin dəyişdirilməsi və digər işlərin görülməsi diqqətdə saxlanılıb.

“Naxçıvanqaz” İstehsalat Birliyi muxtar respublikamızda 86 min 377 əhali abonentin, kommunal büdcə təşkilatları üzrə 924, qeyri-dövlət təşkilatları üzrə 1403, sənaye üzrə 143 və enerji istehsal edən müəssisələr üzrə 2 (Qaz Turbin və Modul Elektrik stansiyaları), ümumilikdə, 2472 qeyri-əhali abonentin təbii qazla təminatına xidmət göstərir.

Görülən işlər çərçivəsində ötən il 982 abonent, o cümlədən 862 əhali və 120 qeyri-əhali abonenti tərəfindən daxil olan müraciətlərə əsasən ev, mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb. Muxtar respublika qaz təsərrüfatı şəbəkəsində qaz analizatorları və dedektorlar vasitəsilə aşkarlanan qaz sızmaları texniki istismar qaydalarına uyğun olaraq aradan qaldırılıb.

Muxtar respublikanın şəhər, rayon Qaz-İstismar idarələrinin qəza-dispetçer xidmətlərinə istər əhali, istərsə də qeyri-əhali təbii qaz istehlakçıları tərəfindən qazın təzyiqinin düşməsi, tənzimləyicilərin dayanması və digər bu kimi səbəblərə görə daxil olan çağırışlar öz həllini tapıb. Abonentlərin mexaniki qaz sayğaclarının kənar müdaxilələrdən qorunması üçün 44 min 321 ədəd mühafizə qutusu quraşdırılıb.

Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilir. Ümumilikdə, 17 min 525 ədəd, o cümlədən ötən il ərzində 950 smartkarttipli qaz sayğacı və mühafizə qutusu quraşdırılıb. Həmin qaz sayğaclarının diaqnostik müayinəsi, kompüter vasitəsilə test edilməsi və ortaya çıxan nöqsanların aradan qaldırılması üçün xidmət stansiyası təşkil olunub.

Qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin ixtisasartırma kursları təşkil olunub. Kursu bitirən müdavimlərə sertifikat verilib.

“Naxçıvanqaz” İstehsalat Birliyi nəzarət tədbirlərini gücləndirib, daimi fəaliyyət göstərən yoxlama-nəzarət komissiyası tərəfindən vaxtaşırı reydlər keçirilərək “Qazdan istifadə qaydaları”nın tələblərinə istehlakçılar tərəfindən riayət olunması yoxlanılır, ortaya çıxan nöqsanlar aradan qaldırılır.

**Güntac ŞAHMƏMMƏDLİ**

# "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində işlər davam etdirilir

***Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsi kimi məşğulluq probleminin həlli mühüm əhəmiyyət kəsb edir. Son illər Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatların əhatə dairəsinin genişlənməsi, istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması yeni iş yerlərinin açılmasına və əhalinin işlə təminatına əsaslı zəmin yaratmışdır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaratmış, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açmış, ailələrin özünüməşğulluq imkanlarını genişləndirmişdir. Dövlət proqramına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Statistika Komitəsi tərəfindən 2018-ci ilin əvvəlində muxtar respublikanın əmək bazarı təhlil edilmiş, illər üzrə əmək bazarını xarakterizə edən göstəricilər Dövlət Statistika Komitəsinin internet saytında yerləşdirilmişdir. Boş iş yerlərinin toplanmasının təmin edilməsi məqsədilə vergi orqanlarında qeydiyyatdan keçmiş 2320 fiziki və 30 hüquqi şəxs haqqında məlumatlar Vergilər Nazirliyi tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilərək təhlil edilmiş, müəyyən edilmiş boş iş yerləri məşğulluq xidmətləri tərəfindən qeydiyyata alınmışdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işəgötürənlər tərəfindən vakansiyalar haqqında hesabatların təqdim edilməsinə nəzarət daha da artırılmış, yerlərdə mütəmadi olaraq monitorinqlər keçirilmiş, boş iş yerlərinin toplanması təmin edilmiş, İqtisadiyyat Nazirliyi tərəfindən muxtar respublikada fəaliyyət göstərən 110 orta və iri sahibkarlıq subyektlərinə boş iş yerləri haqqında aidiyyəti üzrə məlumat verilməsinə dair maarifləndirmə işləri aparılmışdır.

Müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatı müəyyənləşdirmək məqsədilə 184-ü dövlət, 152-si özəl olmaqla, ümumilikdə, 336 müəssisədə sorğu keçirilmiş, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbat müəyyənləşmişdir. Əmək bazarında əcnəbi işçiyə olan tələbatı müəyyənləşdirmək məqsədilə təhlillər aparılmış, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən 2019-cu il üçün əmək miqrasiyası kvotası təsdiq edilmişdir. Kvota müvafiq iqtisadi fəaliyyət sahələri üzrə 500 yerdən ibarətdir.

Aktiv məşğulluq tədbirləri dövlət proqramında nəzərdə tutulmuş tələblər əsasında yerinə yetirilmiş, 3634 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuşdur. Onlardan 2976-sı məşğulluq xidməti orqanları tərəfindən işə düzəldilənlər, 588-i Azərbaycan Respublikası Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə göndərilənlər, 70-i isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən təşkil edilmiş imtahanlarda müvəffəqiyyət qazanaraq vakant dövlət qulluğu vəzifələrinə təyin olunanlardır. Bundan başqa, dövlət qulluğunun xüsusi növünə aid olan dövlət orqanlarında vakant olan vəzifələrin tutulması üçün keçirilmiş test imtahanlarında iştirak edən 344 namizəddən 106-sı müvafiq keçid balını toplamışdır. Həmçinin komissiyanın müəllimlərin dövlət ümumi təhsil müəssisələrində işə qəbulu üçün təşkil etdiyi test imtahanlarında iştirak edən namizədlərdən 179-u müvafiq keçid balını toplamışdır.

Bundan başqa, ötən dövrdə 377 nəfər müvəqqəti və mövsümi işlərə göndərilmiş, 262 işaxtaran sosial əhəmiyyətli haqqıödənilən ictimai işlərə cəlb edilmişdir ki, bunlardan 40-ı sağlamlıq imkanları məhdud şəxslərdir. Muxtar respublikada təşkil olunmuş əmək yarmarkalarında 664 nəfər işlə təmin olunmuş, hərbi xidmətdən yeni tərxis olunan şəxslərin məşğulluqlarının təmin edilməsi də nəzarətdə saxlanılmış, 22 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuş, 5 nəfər isə peşə hazırlığına cəlb edilmiş, tətil günlərində işləmək istəyən 39 tələbə mövsümi işlərə göndərilmişdir. Ədliyyə Nazirliyi tərəfindən Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində 42 məhkum ödənişli işlərə cəlb edilmişdir.

Muxtar respublikada əhalinin məşğulluq imkanlarının artırılmasında sahibkarlığın inkişafı mühüm yer tutur. Bu işdə kiçik və orta sahibkarlıq fəaliyyətinin dəstəklənməsi vacib məsələ kimi daim diqqətdə saxlanılır. Ötən il kiçik və orta sahibkarlığın inkişafı məqsədilə Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına müvəkkil kredit təşkilatları tərəfindən 27 yeni layihənin maliyyələşdirilməsinə 6 milyon 66 min manat vəsait yönəldilmiş, özəl investisiya qoyuluşu hesabına kiçik və orta sahibkarlığın inkişafı sahəsində 7 layihənin maliyyələşdirilməsi və yaradılması başa çatdırılmış, 10 layihənin maliyyələşdirilməsi və yaradılması davam etdirilmişdir. Nəticədə, istehsal və xidmət sahələrində dövlət maliyyə dəstəyi hesabına yaradılmış müəssisələrdə 329, özəl investisiya qoyuluşu hesabına yaradılmış müəssisələrdə 69 olmaqla, ümumilikdə, 398 yeni iş yeri yaradılmışdır. Ötən dövrdə banklar və digər kredit təşkilatları tərəfindən kiçik və orta sahibkarlığın inkişafı, həmçinin yeni iş yerlərinin yaradılması məqsədilə dövlət maliyyə dəstəyi göstərilmiş, sənayenin inkişafına 5 milyon 172 min, balıqyetişdirmənin inkişafına 15 min, tikintinin inkişafına 670 min, ticarətin inkişafına 2 milyon 543 min 800, nəqliyyat və rabitənin inkişafına 521 min, kənd təsərrüfatının inkişafına isə 5 milyon 818 min 300 manat olmaqla, ümumilikdə, 14 milyon 740 min 100 manat həcmində güzəştli şərtlərlə kredit verilmişdir. Kreditlərin 5 milyon 864 min 600 manatı Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına ödənilmişdir.





Ötən dövrdə muxtar respublikanın rayon, qəsəbə və kəndlərində yeni istehsal sahələrinin yaradılması məqsədilə 58 layihə hazırlanaraq təqdimatı keçirilmiş, yerli resurslara əsaslanan 36 təsərrüfatın yaradılması başa çatdırılmışdır. Rayonların sosial-iqtisadi inkişaf perspektivləri, habelə kəndlərdə məşğulluq ənənələri nəzərə alınaraq İqtisadiyyat Nazirliyi tərəfindən 34 fərdi təsərrüfat və kiçik müəssisələrin yaradılması başa çatdırılmış, innovasiyalar tətbiq olunan yeni iş yerinin yaradıldığı 9 layihə yekunlaşdırılmışdır. Sahibkarlığın İnkişafı Fondunun kredit vəsaiti və özəl investisiya qoyuluşu hesabına 43 layihə icra olunmuşdur. Ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətinin dəstəklənməsi, kiçik və orta sahibkarlığın inkişafının stimullaşdırılması, əhalinin məşğulluğunun artırılması məqsədilə 14 təsərrüfata 253 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilmişdir.

Müəssisələrin tam istehsal gücü ilə fəaliyyət göstərməsi istiqamətində monitorinqlər aparılmış, 2 müəssisənin fəaliyyəti bərpa edilmişdir. Sahibkarlığa yeni başlamaq istəyən şəxslərin maarifləndirilməsi məqsədilə onlara məsləhət xidmətləri göstərilmiş, bu istiqamətdə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində 60 şəxs üçün kurs təşkil olunmuş, 30 müəssisəyə 3020 halda iqtisadiyönümlü informasiya çatdırılmış, 31 halda şifahi konsaltinq xidməti göstərilmiş, muxtar respublikada fəaliyyət göstərən iaşə və mehmanxana obyektlərinin işçilərinə xidmət mədəniyyəti ilə bağlı maarifləndirici seminarlar keçirilmişdir.

2018-ci ildə kənd xidmət mərkəzlərində fəaliyyət göstərən dərzi sexləri, bərbərxana və qadın gözəllik salonlarında monitorinqlər aparılmış, mərkəzlərdə mövcud olan vakansiyalar üzrə çalışmaq istəyən şəxslər Naxçıvan Regional Peşə Tədris Mərkəzində müvafiq peşələr üzrə 5 kurs təşkil olunmuşdur. Xidmət mərkəzlərində vakant yerlər üzrə 49 bərbər, 73 bərbər-manikürçü və 16 dərzi olmaqla, 138 nəfər işlə təmin olunmuşdur. Göstərilən dövlət dəstəyi nəticəsində ötən il ərzində muxtar respublikada 2827 yeni iş yeri açılmışdır ki, bunun da 98,4 faizi daimi iş yerləridir.

Əmək bazarının tələbinə müvafiq olaraq, işaxtaranların peşə hazırlığının təşkili də diqqətdə saxlanılmış, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təşkil edilmiş 22 peşə kursuna 337 nəfər cəlb edilmişdir ki, onlardan 30-u sağlamlıq imkanları məhdud şəxslərdir. Təhsil Nazirliyinin tabeliyində olan peşə məktəblərində isə ilk peşə ixtisas qruplarını 2753 nəfər bitirmişdir. Həmçinin ötən dövrdə xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzində dərzi, bərbər, bərbər-manikürçü və aşpaz köməkçisi peşələri üzrə təşkil edilmiş kurslara 94 nəfər cəlb olunmuş, Təhsil Nazirliyi tərəfindən bufetçi, aşpaz köməkçisi, bərbər və bərbər-manikürçü ixtisasları üzrə 166 nəfər ilk peşə ixtisası müəssisələrini bitirmişdir.

Bu gün xalq yaradıcılığı sahələrinin dirçəldilməsi bir tərəfdən milli dəyərlərimizin yaşadılmasına, digər tərəfdən isə sənətkarların yetişməsinə və istedadlı gənclərin məşğulluğunun təmin olunmasına xidmət edir. Bu səbəbdən də dövlət proqramının icrası zamanı xalq tətbiqi sənəti növləri üzrə kursların keçirilməsinə diqqət artırılmış, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçı peşəsi üzrə kurs təşkil edilmiş, Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində təşkil edilmiş ağac, daşduz üzərində oyma və qazanxana maşinisti kurslarına 33 məhkum cəlb olunmuşdur. Təhsil Nazirliyi tərəfindən təşkil edilən xalçaçı, çörək və qənnadı məmulatları ustası, arıçı və dərzi kurslarını 108 müdavim bitirmişdir. "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin tabeliyində yaradılmış "Xalq Yaradıcılığı Emalatxanası"nın tərkibində ağac üzərində oyma, xalçaçılıq, rəssamlıq və dekorativ-tətbiqi sənət kimi qədim xalq sənəti sahələri üzrə bölmələrin fəaliyyəti davam etdirilmiş, "Dizayn Holdinq" Kommersiya Şirkətləri İttifaqının nəzdində misgərlik, dulusçuluq və ağac üzərində oyma sənətləri üzrə emalatxana yaradılmış və bu sahələr üzrə kurslar təşkil olunmuşdur. Həmçinin "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində daimi fəaliyyət göstərən emalatxanada taxta üzərində oyma və naqqaşlıq sənətini öyrənmək istəyən şəxslər üçün müvafiq şərait yaradılmışdır. Şərur rayonunda – Cəlilkənddəki XIX əsrə aid "Buzxana" tarixi-memarlıq abidəsində isə xalçatoxuma, misgərlik, Yengicə kəndindəki Şərq hamamında papaqçı, foto, dərzi, qadın və kişi bərbəri, musiqi alətlərinin düzəldilməsi və təmiri, çəkməçi sahələri yaradılmış, müvafiq avadanlıqlarla təmin olunmuşdur. Mədəniyyət Nazirliyi tərəfindən müxtəlif sənətkarların tətbiqi sənət və rəsm əsərlərinin müqavilələr əsasında qəbulu və satışı təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 1132 qadınla əlaqə saxlanılaraq təşkil ediləcək müvafiq peşə kursları barədə məlumat verilmişdir. İşəgötürənlərin işçi qüvvəsinə olan tələbatını müəyyənləşdirərək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Təhsil Nazirliyi tərəfindən traktorçu-maşinist, qazanxana maşinisti, qaynaqçı, kabellehimləyici və rabitə montyoru, turizm agenti, gözətçi, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, videooperator kursları təşkil edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş qrafikə əsasən tədris ili ərzində 4450 nəfər yuxarı sinif şagirdinə əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilmişdir. Nəticədə, 2017-2018-ci tədris ilinin sonunda natamam orta təhsili bitirərək peşə təhsili almaq istəyən şəxslər peşə hazırlığı kurslarına cəlb edilmişdir.

Dövlət proqramına uyğun olaraq əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə təhlillər aparılmış, ünvanlı dövlət sosial yardımı almaq üçün müraciət edən 87 nəfər işlə təmin olunmuşdur. Habelə sosial qayğıya ehtiyacı olan 110 aztəminatlı ailənin fərdi təsərrüfatının inkişaf etdirilməsinə və özünüməşğulluğunun təmin olunmasına köməklik göstərilmişdir. Peşə təhsilinə malik sağlamlıq imkanları məhdud 89 nəfər münasib işlə təmin olunmuşdur. Novruz bayramı ərəfəsində sağlamlıq imkanları məhdud 8 qadının özünüməşğulluğunu təmin etmək üçün onlar tərəfindən yetişdirilmiş 1074 səməni alınmışdır. Həmçinin "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" sosialyönümlü haqqıödənilən ictimai işə 7 xalçatoxuyan evdar qadın cəlb olunmuşdur. Sağlamlıq imkanları məhdud 19 şəxs tərəfindən toxunmuş 2500 cüt yun corab və 200 yun şərf əsgərlərə təqdim edilmişdir.

Sosial qayğıya xüsusi ehtiyacı olan şəxslərin rəsm və əl işlərinin satışına köməklik göstərilməsi üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 236 şəxsin 11 min 250 manat dəyərində 881 rəsm və əl işinin satışı təşkil edilmişdir. 3 dekabr – Beynəlxalq Əlillər Günü ilə əlaqədar Bakı şəhərində fiziki məhdudiyyətli şəxslərin X ümumrespublika yaradıcılıq sərgi-müsabiqəsinə muxtar respublikadan 13 müəllifin 85 əl işi təqdim olunmuşdur. "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində təşkil edilmiş sərgi-satışlarda 316 adda 4 min 757 manat dəyərində əl işlərinin satışı və "Xalq Yaradıcılığı Emalatxanası"nın xalçaçılıq bölməsində toxunmuş 8439 manat dəyərində 30 xalçanın satışı həyata keçirilmişdir. Həmçinin "Duzdağ", "Təbriz" və "Qrand" otellərində ayrılmış sahələrdə, Duzdağ Fizioterapiya Mərkəzində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində əl işlərinin nümayişi və satışı həyata keçirilmişdir.

Müvafiq dövlət qurumları ilə birlikdə qeyri-formal məşğulluğun qarşısının alınması, işəgötürülən şəxslərlə əmək müqavilələrinin bağlanmasına nəzarət məqsədilə monitorinqlər aparılmışdır. İşəgötürənlər tərəfindən iş yerlərində sağlam sanitariya-gigiyena şəraitinin yaradılmasına, işçilərin fərdi mühafizə vasitələri ilə təmin edilməsi və əməyin mühafizəsi qaydalarına əməl olunmasına nəzarət edilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi" ilə bağlı 35 seminar təşkil edilmiş, 826 müəssisənin 914 nümayəndəsi bu seminarlarda iştirak etmişdir. Həmçinin müəssisələrin nümayəndələrinə maarifləndirici bukletlər təqdim edilmişdir. İl ərzində əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminə 976 dövlət və özəl müəssisədən 34 min 694 əmək müqaviləsi bildirişi daxil edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən əməkçi miqrantların çalışdıqları iş yerlərində müvafiq statusa və iş icazələrinə malik olmaları araşdırılmış, onların əmək fəaliyyətlərinin qanuniliyinə nəzarət edilmişdir. Əməkçi miqrantların muxtar respublika ərazisində qeyri-leqal şəkildə əmək fəaliyyətinə cəlb edilməsinin qarşısının alınması məqsədilə keçirilmiş görüşlərdə işəgötürənlərlə profilaktik söhbətlər aparılmışdır.

*Dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası 2019-cu ildə də davam etdiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Gəncliyimiz, gələcəyimiz*

# Ötənilki yaddaqalan uğurlar sabaha inam yaradır

*2018-ci il Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, gənclər və idman sahəsində də uğurlarla yadda qaldı. Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı olması ilə yanaşı, ölkəmizin Gənclər Paytaxtı seçilməsi gənclərimizin fəaliyyət dairəsini də xeyli genişləndirdi. Həyata keçirilən dövlət gənclər siyasəti, yaradılan şərait, naxçıvanlı gənclərin beynəlxalq arenalarda uğurlar qazanması bir daha sübut etdi ki, Naxçıvan bu adları daşımağa layiqdir. Təbii ki, gənclər üçün yaradılan müasir infrastruktur da burada əsas rol oynadı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyə və tapşırığına əsasən Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və Heydər Əliyev adına Gənclər Birliyinin birgə iş planı tərtib olundu və il ərzində bir çox tədbirlər həyata keçirildi. Təşkil olunan tədbirlərdə ulu öndərimizin siyasi irsinin gənclərə aşılanması, hərbi xidmətdən tərxis olunmuş gənclərlə işi gücləndirmək, onların düzgün maarifləndirilməsi, intellektual oyunların keçirilməsi, sosial şəbəkələrdən gənclərimizin səmərəli istifadəsi prioritet məsələlər oldu. İctimai həyatda fəal olan gənclərimizin bir neçəsindən 2018-ci ilin onlar üçün hansı uğurlarla yadda qaldığını və cari ildən gözləntilərinin nə olduğunu soruşduq.*

***Fətəli AXUNDZADƏ – ilin gənc musiqiçisi***

Fətəli üçün 2019-cu il yeni ümidlərin, arzu və istəklərin yaranması deməkdir: "Sevindirici haldır ki, 2018-ci il istər Azərbaycan, istərsə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan üçün çox uğurlu il oldu. Ötən il mədəni-kütləvi tədbirlərlə yanaşı, görkəmli şəxsiyyətlərin yubileylərinin keçirilməsi ilə yadda qaldı. 2018-ci ilin may ayında Şərur rayonunun Günnüt kəndi də daxil olmaqla, ümumilikdə, 11 min hektar ərazimizin düşməndən azad edilməsi biz gənclərdə böyük ruh yüksəkliyi yaratdı.



Ötən il Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı olması muxtar respublikamızın, ölkəmizin, ümumilikdə isə, İslam dünyasının mədəni həyatında yaddaqalan bir hadisə, mədəniyyət aləmində beynəlxalq səviyyədə böyük irəliləyişlərin müjdəçisi kimi tarixdə yer aldı. İslam Mədəniyyətinin Paytaxtı adını fəxrlə daşıyan Naxçıvan şəhərinin həmin il həm də ölkəmizin Gənclər Paytaxtı seçilməsi hər birimizi qürurlandırdı. Doğma şəhərimizin belə bir statusa layiq görülməsi muxtar diyarımızın təbliği istiqamətində daha geniş imkanlar açdı.

Naxçıvanda yallı sənətinin inkişafı sahəsində ötən illər ərzində kompleks tədbirlər görülüb, yallılar nota köçürülüb, kitab nəşr olunub. Bu sahədə görülən işlərin nəticəsi olaraq ötən il "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi biz sənət adamlarının da hər birinə milli qürur və sevinc hissi yaşatdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Şərur yallıları haqqında" 2018-ci il 24 dekabr tarixli Sərəncam imzalaması bu xalq yaradıcılığının öyrənilməsi və təbliği istiqamətində mədəniyyət işçilərinin də qarşısında mühüm vəzifələr qoyur.

Gənc musiqiçinin fikrincə, ötən il muxtar respublikanın bütün sahələrində fəaliyyət göstərən gənclər üçün çox məhsuldar il oldu. Çoxsaylı və rəngarəng mədəni-kütləvi, elmi tədbirlərin keçirildiyi bir diyarda gənclərin uğur qazanması təbiidir.

Çalışdığım mədəniyyət sahəsi bir çox böyük mədəni tədbirlərə imza atdı və o tədbirlərin bir qismində mən də iştirak etdim. İstər çalışdığım Naxçıvan Musiqi Kollecində, istərsə də Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin iştirakı ilə keçirilən tədbirlər yaddaqalan oldu. İnanıram ki, Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi kimi əlamətdar hadisəni qeyd edəcəyimiz 2019-cu ildə mədəniyyətimizin də inkişafında mühüm nailiyyətlər əldə olunacaq".

***Aidə İBRAHİMOVA – fəal mədəniyyət işçisi:***

– Bu gün muxtar respublikamızda milli dəyərlərin inkişafı ön plandadır. Belə dəyərlər içərisində xalq yaradıcılığı xüsusi yer tutur. Diyarımızda xalq yaradıcılığı günlərinin keçirilməsi, təhsil və mədəniyyət ocaqlarında gələcək nəsillərə milli dəyərlərimizin aşılanması həmin sərvətlərimizin yaşadılmasının göstəricisidir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri mədəniyyətimizin inkişafını diqqət mərkəzində saxlayır, bu istiqamətdə dövlət proqramları təsdiq olunur. Bu sırada Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nı təsdiq etməsini 2018-ci ilin ən yaddaqalan hadisələrindən biri hesab edirəm. Bu dövlət sənədi biz mədəniyyət işçilərinə fəaliyyətimizdə stimul yaradıb.

Artıq iki ildir ki, mən Naxçıvanı qarış-qarış gəzərək yaşlı insanlardan etnoqrafik materiallar toplayıram. Məqsədim nənə və babalarımızın dilindən süzülüb gələn bütün tarixi faktları mükəmməl mənimsəyib maraqlı işlər ortaya çıxarmaq, topladığım materialları kitab halına gətirərək oxuculara təqdim etməkdir.

Ötən il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Milli geyimlər" festivalında iştirakım mənim üçün çox xoş təəssüratlarla yadda qaldı. Gördüyüm işlər xalq yaradıcılığının əsas bir hissəsini (milli geyimlər, bədii tikmələr, yallı, folklor və sair) özündə cəmləşdirsə də, yeniliklər etməyi qarşıma məqsəd qoymuşdum. İki ildir, rəhbərlik etdiyim ilk "Pantomimo" dərnəyində uğurlar qazanırıq. Muxtar respublika dram dərnəklərinin müsabiqəsində ilk və son turlarda istedadlı gənclərimizin göstərdiyi nəticələrə görə qalib olduq. Ötən ilin dekabr ayında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən "Fəal mədəniyyət işçisi" adına layiq görülmüşəm. Bu isə məsuliyyət hissimi daha da artırır. Mənə göstərilən etimadı hər zaman doğrultmağa çalışacağıma söz verirəm. Qarşıda həyata keçirmək istədiyim çoxlu layihələr və işlər var. Ümid edirəm ki, öhdəsindən gələcəyəm.

***Səkinə TARVERDİYEVA – ilin gənc həkimi***

Muxtar respublikada səhiyyəyə göstərilən diqqət və qayğıdan bəhs edən gənc həkim növbəti ildə işində və şəxsi həyatında müsbət nəticələr əldə etmək istəyir: "Geridə qoyduğumuz il muxtar respublikanın bütün sahələrində uğurlu il kimi tarixin yaddaşına həkk olundu. Naxçıvanın istər İslam Mədəniyyətinin Paytaxtı, istərsə də ölkəmizin Gənclər Paytaxtı olması biz gənclərin məsuliyyətini daha da artırdı. Təbii ki, hər zaman diqqətlə əhatə olunan gənclər bunun öhdəsindən layiqincə gəldilər".



Müsahibimin sözlərinə görə 2018-ci il bütün səhiyyə işçiləri üçün də uğurlu olub. Ən çox yaddaqalan isə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında çalışdığı müddətdə xəstəxana binasını yenidən qurularaq istifadəyə verilməsidir. "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın qəbul edilməsi bir daha sübut etdi ki, uşaqların sağlamlığının qorunması sahəsində görülən işlərin həcminin və keyfiyyətinin artırılması daim diqqət mərkəzindədir. Mən də çalışacağam ki, öz fəaliyyətimlə gələcəyimiz olan uşaqlarımızın sağlamlığı istiqamətində həyata keçirilən tədbirlərə töhfəmi verim.

***Rəhim NƏCƏFOV – fəal gənc:***

– Yeni ildə hər bir gənc kimi, təbii ki, mənim də arzularım var. Bu arzuların sırasında karyeramla bağlı olanlar da çoxdur. İş həyatımda böyük uğurlar qazanacağıma ümid edirəm. Hər zamankı kimi, bu il də şəxsi inkişaf mənim üçün prioritet məsələ olacaq. Müəyyən proqramlar əsasında xarici ölkələrdə ingilis dilində tədris olunan "Avropaşünaslıq" fənni üzrə kurslar keçməK niyyətindəyəm. Çünki ilk dəfə 2016-cı ildə Polşada və Çexiyada TEMPUS proqramı əsasında ingilis dilində tədris olunan kursda qazandığım uğuru təkrarlamaq istəyirəm. Eyni zamanda təsisçisi olduğum "İDEAL" ingilis dili kursunun əhatə dairəsini genişləndirməyi planlaşdırıram. Bununla yanaşı, çoxlu kitab oxumağı, tədbirlərə qatılmağı və muxtar respublikamız üçün layiqli işlərdə uğur qazanmağı düşünürəm.



Ötən il ölkəmizin Gənclər Paytaxtı olan Naxçıvanda bir sıra dövlət tədbirləri keçirildi. Bu tədbirlərdə biz gənclərin fəal iştirakını da xüsusilə qeyd etmək istərdim. Mənim üçün ən yaddaqalan tədbir isə Naxçıvanda keçirilən "Avropa günləri" oldu. "Avropa günləri" qədim və müasir Naxçıvanın dünyada təbliği, muxtar respublikanın Avropaya inteqrasiyası baxımından əhəmiyyətli idi. Naxçıvanın mədəni həyatında xoş xatirə kimi qalan bu tədbirdə bir çox gəncimiz könüllü tərcüməçi kimi iştirak etməklə həm Avropa İttifaqını təşkil edən ayrı-ayrı ölkələrin mədəniyyəti və tarixi haqqında yeni bilgilər qazandı, həm də muxtar respublikamızın şanlı tarixi barədə qonaqlara ətraflı məlumatlar verdilər.

Ümid edirəm ki, Naxçıvan gəncləri bu il muxtar respublikamızın 95 illik yubileyinə öz fəaliyyətləri ilə sanballı töhfələr verəcəklər.

**✍ Ceyhun MƏMMƏDOV**

*Muxtar respublika gömrük orqanları sıralarına yeni qəbul olunmuş gənc əməkdaşların andiçmə mərasimi keçirilib.*

## Gənc gömrükçülərin andiçmə mərasimi keçirilib



30 yanvar – Azərbaycan Respublikası gömrük əməkdaşlarının peşə bayramı günü ərəfəsində Dövlət Bayrağı Muzeyində təşkil olunan tədbirdə "Gömrük andı"nı sınaq müddətini bitirmiş və ilk xüsusi rütbələr verilmiş 20 gömrükçü qəbul edib.

Əməkdaşlar təntənəli surətdə and içiblər.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni oxunub.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli "Gömrük andı"nı qəbul etmiş əməkdaşları təbrik edərək seçdikləri bu şərəfli yolda onlara uğurlar arzulayıb. Bildirilib ki, əsl gömrükçü olmaq üçün bu peşənin sirlərinə dərindən yiyələnməli, qanunvericiliyin tələblərinə sözsüz riayət etməli, qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində təşəbbüskarlıq və mütəşəkkillik göstərilməlidir.

Nizam-intizam və məsuliyyət olan yerdə uğur da var, – deyən komitə sədrinin müavini onu da vurğulayıb ki, hər bir gömrükçü milli dövlətçiliyimizə sədaqətlə xidmət etməli, ümummilli liderimiz Heydər Əliyevin ideyaları ətrafında sıx birləşməlidir.

Sonra Dövlət Bayrağı Muzeyi ilə tanışlıq olub.

## Qısa idxal bəyannaməsinin əvvəlcədən təqdim olunmamasına görə cərimələr tətbiq ediləcək

Gömrük qanunvericiliyinə əsasən biznes subyektləri tərəfindən qısa idxal bəyannaməsinin təqdim olunması öhdəliyi ilə bağlı dəyişikliklər fevral ayının 1-dən qüvvəyə minəcək. Qeyd edək ki, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 113-cü maddəsinə edilmiş dəyişikliklərə görə mallar gömrük ərazisinə gətirilməzdən əvvəl gömrük orqanlarına qısa idxal bəyannaməsi təqdim olunmalıdır. Bu tələb fiziki şəxslər tərəfindən gömrük sərhədindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların keçirilməsi hallarına aid deyil.

Qısa idxal bəyannaməsi məlumatların elektron emalı üsullarından istifadə olunmaqla, elektron sənəd formasında təqdim edilməlidir. Bunun üçün şəxslər "Asan imza" və ya "Elektron imza" vasitəsilə "Elektron hökumət" portalına daxil olub "Dövlət Gömrük Komitəsi"ni, oradan da "Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron gömrük bəyannaməsinin qəbulu, gömrük rəsmiləşdirilməsi və rəsmiləşdirilmə prosesinin onlayn monitorinqi" xidmətini seçməlidirlər. Qısa idxal bəyannaməsi məhz gömrük orqanlarının bu elektron xidmət bölməsinə giriş etməklə tərtib oluna bilər. Risklərin təhlili, o cümlədən gömrük nəzarətinin aparılması üçün tələb olunan həmin elektron sənəddə zəruri məlumatlar düzgün əks etdirilməli və malların gömrük sərhədini keçməsindən ən azı bir saat əvvəl gömrük orqanına təqdim olunmalıdır. Qısa idxal bəyannaməsi malları gömrük ərazisinə gətirən və ya daşınmasına cavabdeh olan şəxslər, onların nümayəndələri, yaxud malları gömrük rəsmiləşdirilməsi üçün gömrük orqanına təqdim edən şəxs tərəfindən verilə bilər. Mal sahibləri sözügedən elektron sənədi gömrük təmsilçiliyi xidmətindən yararlanmaqla da təqdim edə bilərlər. Bunun üçün "Naxçıvanterminalkompleks" Birliyi tərəfindən muxtar respublikanın bütün gömrük-sərhəd buraxılış məntəqələrində təmsilçilik xidməti göstərilir.

Onu da qeyd edək ki, qısa idxal bəyannaməsinin verilməməsi bəyannaməçi üçün inzibati məsuliyyət yaratsa da, gömrük rəsmiləşdirilməsinin və malların buraxılışının həyata keçirilməsinə mane olmayacaq.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən fevral ayının 1-dən etibarən qısa idxal bəyannaməsinin əvvəlcədən, yəni mallar gömrük ərazisinə gətirilməzdən öncə elektron formada təqdim edilməməsinə görə vəzifəli şəxslər min manat, hüquqi şəxslər isə min beş yüz manat məbləğində cərimə ediləcək.

Gömrük qanunvericiliyində edilmiş bu dəyişikliklərin tətbiqi sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, şəffaflığın təmin olunmasına, ticarətin asan və sürətli şəkildə həyata keçirilməsinə şərait yaradacaq.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Aztəminatlı ailəyə baş çəkilib

Naxçıvan Muxtar Respublikası Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Kəngərli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Yeni Kərki kəndində yaşayan aztəminatlı və çoxuşaqlı Babayevlər ailəsinə baş çəkilib.

Ailə ilə görüş zamanı adıçəkilən təşkilatların əməkdaşları dövlətimiz tərəfindən aztəminatlı ailələrə göstərilən diqqət və qayğı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, aztəminatlı, xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial təminatlarının gücləndirilməsi istiqamətində ardıcıl olaraq həyata keçirilən tədbirlərdən danışıblar.

Sonra aztəminatlı ailənin yaşayış şəraiti ilə maraqlanılıb, ailə üzvlərinə tibbi xidmət göstərilib, ərzaq payı verilib və uşaqların ehtiyaclarına uyğun köməkliklər edilib. Ailə üzvləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-81-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 77